# Birdəqiqəlik sükut

### Bakı



Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində birdəqiqəlik sükutla yad olunub.

İnsanlar şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını birdəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib.

### Naxçıvan



27 Sentyabr - Anım Günü ilə əlaqədar ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Saat 12:00-da Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında nəqliyyatın və piyadaların hərəkəti dayandırılıb, avtomobillərdən siqnallar verilib.

### Xankəndi



27 Sentyabr - Anım Günündə Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi Xankəndi, Xocalı və Ağdərədə ehtiramla anılıb.

Saat 12:00-da nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən siqnallar verilib, polis əməkdaşları hərbi salamla şəhidlərimizin xatirəsini anıblar.

### Laçın



Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində olduğu kimi, Laçın rayonunda da birdəqiqəlik sükutla yad edilib.

Sükut dəqiqəsi zamanı nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib. Rayon sakinləri şəhid əsgər və zabitlərimizin ruhu qarşısında dərin ehtiramla baş əyiblər.

### Hadrut



Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində olduğu kimi, Xocavənddə də birdəqiqəlik sükutla yad olunub.

Xocavəndin Hadrut qəsəbəsində sükut dəqiqəsi zamanı nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları verilib. Hər kəs şəhid əsgər və zabitlərimizin xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Anım mərasimində Xocavənd sakinləri ilə bərabər Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa-Tikinti və İdarəetmə Xidmətinin, hüquq-mühafizə orqanlarının, ANAMA-nın əməkdaşları, hərbçilər, Xocavənddə tikinti-quruculuq işlərində çalışan işçilər iştirak ediblər.

*AZƏRTAC*